| | | |
|---|---|---|
| **Ümumi məlumat** | Fənnin adı, kodu və kreditlərin sayı | PSYC304, Təhsil Psixologiyası,<br>3KU, 6 AKTS |
| | Departament | Psixologiya |
| | Proqram (bakalavr, magistr) | Bakalavr |
| | Tədris semestri | 2025/2026-ci ilin tədris ilinin payız semestri |
| | Fənni tədris edən müəllim (lər) | Xudaverdi Məmmədov |
| | E-mail: | - |
| | Telefon: | - |
| | Mühazirə otağı/Cədvəl | Neftçilər korpusu |
| | Məsləhət saatları | Dərsdən sonra |
| **Prerekvizitlər** | - | |
| **Tədris dili** | Azərbaycan dili | |
| **Fənnin növü (məcburi, seçmə)** | Seçmə | |
| **Dərsliklər və əlavə ədəbiyyat** | ❖ İbrahim Yıldırım "Eğitim psikolojisi" Ankara, 2011<br>❖ Ə. Əlizadə "Müasir Azərbaycan məktəblərinin psixoloji problemləri", Pedaqogika nəşriyyatı, 2004<br>❖ Kurikulum "Elmi-metodiki jurnal", 2012-2013<br>❖ Child Development 14th Edition John Santrock, 2013<br>❖ Jeanne Ellis Ormrod. "Eğitim Psikolojisinin Temelleri Etkili Öğretime Işık Tutan Büyük Fikirler - Essentials of Education" (Nobel yayıncılık, 2024)<br>❖ Bacanlı, H. (2015). Eğitim psikolojisi (21. bs.). Ankara: Pegem A Yayıncılık.<br>❖ Erdoğan, İ. (2015). Eğitim bilimleri ve milli eğitime dair. Ankara: Nobel Yayıncılık.<br>❖ Human Development: Robert V. Kail, John C. Cavanaugh, Wadsworth Publishing; 7 editions, 2015<br>❖ Babaoğlan, E. ve Yıldırım, C. (2011). "Sınıf Öğretmenlerinin Kullandığı Sınıf Yönetim Modelleri" e-Journal of New World Sciences Academy Education Sciences. 6:2, ss.1635-1650.<br>❖ Bee&Denise Boyd- Çocuk Gelişimi - İstanbul, 2009<br>❖ Canter, L. (2010). Lee Canter's Assertive Discipline: Positive Behavior Management for Today's Classroom. Bloomington: Solution Tree Press.<br>❖ Gelişim ve Öğrenme psikolojisi – Topses, G (Ankara 2003)<br>❖ J. Piaget "Zihinsel Gelişim" | |
| **Kursun təsviri** | Təhsil psixologiyası, insanın inkişaf mərhələləri, öyrənmə nəzəriyyələri, pedaqoji fəaliyyət, şagird və müəllim şəxsiyyətinin psixoloji xüsusiyyətlərini açıqlayır. Təhsil psixologiyası təlim, tədris və öyrənmə proseslərini araşdıraraq öyrənmə zamanı öyrənməyə təsir edən amilləri və effektiv öyrənməni təmin etmək üçün müxtəlif öyrənmə nəzəriyyələri perespektivindən yanaşmanı və təhsilin keyfiyyətində təhsil alanın psixoloji hazırlığını və eyni zamanda da akademik keyfiyyətin artırılması metod və üsullarını əhatə edir.Təhsil zamanı baş verə biləcək öyrənən və öyrədənlə bağlı psixoloji problemləri aydınlaşdırmaq və onların aradan qaldırılması yollarınının öyrədilməsini hədəfləyir. | |

| | | | |
|---|---|---|---|
| **Kursun məqsədləri** | Tələbələr pedaqogikanın psixoloji əsasları haqqında ilkin anlayışlar qazanmalı, öyrənmə haqqında olan nəzəriyyələri və bu nəzəriyyələr arasındakı oxşarlıq və fərqlilikləri görə bilməli və hər bir nəzəriyyəyə görə öyrənmə prosesinin necə olduğunu, bu prosesə təsir edən faktorları və pedaqoji fəaliyyət və müəllim şəxsiyyətinin xüsusiyyətlərini izah edə bilməlidirlər. Eyni zamanda tələbələr öyrənənin effektiv təhsil ala bilməsi üçün düzgün öyrənmə üsullarını, inkişafa bağlı problemlərinin ortadan qaldırılması üçün vasitəçilik etmək bacarıqlarını və məktəb-şagir-valideyn üçlüsünün birgə komanda şəklində fəaliyyətinin təşkilini bilməlidirlər. | | |
| **Tədrisin (öyrənmənin) nəticələri** | 1. Öyrənmə haqqında nəzəriyyələri bilmək və praktiki çalışmalarda anlayışlarını nümayış etdirmək,<br>2. Öyrənmə nəzəriyyələri arasındakı oxşarlıq və fərqi analiz etmək ,<br>3. Hafizə, diqqətə, dolayısıyla öyrənməyə təsir edən amilləri izah edə bilmək,<br>4. Öyrənmə növlərini izah edə bilmək,<br>5. Öyrənmə prosesini analiz edə bilmək,<br>6.Yüksək idraki prosesləri izah edə bilməli və nümunələr üzərində təsvir etmə bacarığına sahib olmaq,<br>7. Milli təhsilin problemləri ilə əlaqədar fikir və təkliflər irəli sürə bilməlidir. | | |
| **Tədris metodları** | Mühazirə | + | |
| | Qrup müzakirəsi | + | |
| | Praktiki tapşırıqlar | + | |
| | Praktiki məsələnin təhlili | + | |
| **Qiymətləndirmə** | Komponentləri | Tarix/son müddət | Faiz (%) |
| | Fəallıq | Semestr boyu | 5 |
| | Davamiyyət | Semestr boyu | 5 |
| | Tapşırıqlar və testlər | Semestr boyu | 5 |
| | Quiz | | 15 |
| | Aralıq imtahanı | 8-ci həftə | 30 |
| | Final imtahanı | | 40 |
| | Yekun | | 100 |
| **Qiymətləndirmə meyarı** | **Təhsil Psixologiyası** fənnində tələbələrin qiymətləndirilməsi müxtəlif komponentlər üzrə aparılır və ümumi qiymətləndirmə 100 bal üzərindən hesablanır. Qiymətləndirmənin əsas məqsədi tələbələrin fənni nə dərəcədə mənimsədiyini, dərslərdə iştirak səviyyəsini və biliklərini tətbiq edə bilmə qabiliyyətini ölçməkdir.<br>Fəallıq komponenti 5% təşkil edir və tələbənin dərslərdə nə dərəcədə aktiv iştirak etməsi ilə ölçülür. Buraya müəllimlə qarşılıqlı əlaqə, suallara cavab vermə, qrup işlərində iştirak və ümumi dərs müzakirələrində fəallıq daxildir. Maksimum bal almaq üçün tələbə hər dərsdə aktiv şəkildə iştirak etməli, fikir bildirməkdən çəkinməməli və qrup işlərində təşəbbüskar olmalıdır.<br>Davamiyyət də ayrıca bir komponent kimi qiymətləndirilir və ümumi balın 5%-ni təşkil edir. Dərslərə müntəzəm və vaxtında qatılmaq bu hissədə yüksək bal toplamaq üçün əsas şərtdir. Dəfələrlə dərsdə iştirak etməmək və ya gecikmələr bu komponent üzrə qiymətə mənfi təsir göstərə bilər. Tələbənin məsuliyyətli və | | |

| | |
|---|---|
| | sistemli şəkildə dərslərdə iştirakı bu balı maksimum səviyyədə saxlamağa imkan verir.<br>Semestr ərzində tələbələrə müxtəlif yazılı tapşırıqlar və testlər təqdim olunur ki, bu komponent ümumi qiymətləndirmənin 5%-ni təşkil edir. Bu tapşırıqlar tələbələrin mövzunu necə başa düşdüyünü və əsas anlayışları tətbiq edə bilib-bilmədiyini qiymətləndirməyə yönəlib. Tapşırıqları vaxtında və düzgün şəkildə yerinə yetirən tələbələr bu hissədən tam bal ala bilərlər.<br>Quiz 15% dəyərindədir və açıq və ya qısa cavab tələb edən suallardan ibarət olur. Tələbələrin bu mərhələdə uğur qazanması üçün fənnin əsas anlayışlarını mənimsəməsi və suallara dəqiq, məntiqi cavablar verməsi vacibdir. Quizdə yüksək nəticə əldə etmək üçün dərs materiallarını diqqətlə oxumaq və mövzulara dair düşünmək tələb olunur.<br>Aralıq imtahanı semestrin 8-ci həftəsində keçirilir və ümumi qiymətləndirmənin 30%-ni təşkil edir. Bu imtahan tələbənin fənnin ilk hissəsini necə mənimsədiyini, əsas anlayışları və nəzəri bilikləri nə dərəcədə dərk etdiyini müəyyənləşdirir. Suallar həm nəzəri, həm də tətbiqi xarakter daşıya bilər. Yaxşı nəticə üçün tələbə dərslik və mühazirə qeydlərini sistemli şəkildə öyrənməli, keçilən mövzuları təhlil edə bilməlidir.<br>Semestrin sonunda keçirilən final imtahanı ümumi qiymətləndirmənin ən böyük hissəsini — 40%-ni təşkil edir. Bu imtahan fənnin bütün mövzularını əhatə edir və tələbənin ümumi bilik səviyyəsini, analitik düşünmə qabiliyyətini və öyrəndiklərini tətbiq edə bilməsini yoxlayır. Finalda yüksək bal toplamaq üçün tələbə dərs boyu keçilən bütün mövzuları tam şəkildə mənimsəməli və hazırlıqlı şəkildə imtahana qatılmalıdır. |
| **Qaydalar (Tədris siyasəti və davranış)** | ***Ümumi qaydalar***<br>Tələbələrdən dərsə hazırlıqlı gəlməsi gözlənilir.<br>Dərsdə keçirilən mövzu ilə əlaqədar hissələri izah etmək, verilən ədəbiyyatı oxumaq, mövzu ilə əlaqədar suallara cavab vermək lazımdır. Qrup içi müzakirələrdə fəal iştirak etmək, verilən tapşırıqları yerinə yetirmək əsasdır. Aralıq və final imtahanında köçürmək qadağandır. Köçürən tələbələrin nəticələri ləğv olunur.<br>Tələbələrin sinifdə etik olmayan müzakirə və davranışları qadağandır.<br>***Fəallıq***<br>Dərs zamanı keçilmiş mövzular haqqında öyrəndiyini izah etmək və sual-cavab prosesində aktivlik nəzərdə tutulur.<br>**Tapşırıqlar və testlər**<br>Verilən ev tapşırıqlarını yerinə yetirən, dərslərin mövzusu haqqında əsas və əlavə ədəbiyyatı oxuyaraq dərs zamanı mənimsədiklərini nümayiş etdirmək nəzərdə tutulur.<br>***Davamiyət***<br>Universitet tərəfindən müəyyən olunan qayıb limitini keçməyən tələblər tam bal ilə qiymətləndiriləcək.<br>***Prezentasiya***<br>Verilmiş müəyyən mövzulara qruplar halında hazırlaşaraq final imtahanına 3 həftə qala hazırlanan mözvuların slaydlar şəkilində təqdimatını etmək və prezentasiyanın son müraciət tarixinə qədər müəllimin şəxsi mailinə göndərmək nəzərdə tutulur. |

| Cədvəl | | |
|---|---|---|
| **Həftə** | **Mövzular** | **Dərslik/tapşırıqlar** |
| 1 | Təhsil psixologiyası. Sahələri. Təhsil psixologiyasında tədqiqat metodları | İ.Yıldırım-Eğitim psikolojisi- s-1-13 |
| 2 | Təlim, təhsil, tərbiyə.<br>Müasir təhsil konsepsiyası.<br>Yeni pedaqoji təfəkkürün formalaşması.<br>Azərbaycan təhsil sistemindəki islahatlar. | Ə. Əlizadə-Müasir Azərbaycan məktəbinin<br>Psixoloji problemləri<br>s-5-58 |
| 3 | Beynəlxalq qiymətləndirmə proqramlarında Azərbaycan.<br>Xarici ölkə təhsil sistemi nümunələri | Kurikulum jurnalı 2.sayı 2013 ,s 5-13 |
| 4 | Təfəkkür. Təxəyyül. Bloom taksonomiyası | Jeanne Ellis Ormrod. “Eğitim Psikolojisinin Temelleri Etkili Öğretime Işık Tutan Büyük Fikirler - Essentials of Education” (Nobel yayıncılık, 2024) s 15-37 |
| 5 | Hafizə və onun növləri<br>İnsanın inkişaf mərhələləri. Fiziki inkişaf | Human Development: Robert V. Kail, John C. Cavanaugh, Wadsworth Publishing; 7 edition, 2015 s. 70-76 |
| 6 | İnsanın inkişaf mərhələləri.<br>Cinsi inkişaf. | Child Development 14th Edition John Santrock, 2013 s. 200-222 |
| 7 | Mənəvi-əxlaqi inkişaf.<br>Şəxsiyyətin formalaşması | İ.Yıldırım-Eğitim psikolojisi- s-17-60 |
| 8 | **Aralıq imtahanı** | |
| 9 | Öyrənmə psixologiyasına giriş.<br>Əsas anlayışlar.<br>Öyrənmə növləri .<br>Öyrənməyə təsir edən faktorlar.<br>Öyrənmə metodları | İ.Yıldırım-Eğitim psikolojisi- s-17-60<br><br>Gelişim ve Öğrenme psikolojisi – Topses, G (Ankara 2003) |
| 10 | Davranışçı öyrənmə nəzəriyyəsi.<br>Klassik şərtlənmə nəzəriyyəsi<br>Operant şərtlənmə nəzəriyyəsi. | İ.Yıldırım-Eğitim psikolojisi- s-121-139 |
| 11 | Sosial öyrənmə nəzəriyyəsi. | Bacanlı, H. (2015). Eğitim psikolojisi (21. bs.). Ankara: Pegem A Yayıncılık. S. 180-212 |
| 12 | Neyrofizioloji öyrənmə.<br>Hümanistik psixologiyada öyrənmə | İ.Yıldırım-Eğitim psikolojisi- s-293-320 |
| 13 | Piaget zehni inkişaf nəzəriyyəsi.<br>Gestalt öyrənmə nəzəriyyəsi | Mark Volery və Jan S.Wilbers, Xüsusi qayğıya möhtac uşaqların erkən yaş dövrü proqramlarına daxil edilməsi, s 34-54 |
| 14 | Xüsusi təhsilə ehtiyacı olan | İ.Yıldırım-Eğitim psikolojisi- s-375-399, Ə. |

| | | |
|---|---|---|
| | Xüsusi qabiliyyəti olan şagirdlərin psixologiyası və təhsili. | Child Development 14th Edition John Santrock, 2013. S 120-150 |
| 15 | Ailə-məktəb-sinif üçlüsünün qarşılıqlı əlaqəsi. Ünsiyyət və ünsiyyət maneələri. | Ə. Əlizadə-Müasir Azərbaycan məktəbinin problemləri, s-249-272 Canter, L. (2010). Lee Canter’s Assertive Discipline: Positive Behavior Management for Today’s Classroom. Bloomington: Solution Tree Press. S 20-40 |
| 16 | Məktəbdə psixoloji xidmət. | Ə. Əlizadə-Müasir Azərbaycan məktəbinin problemləri, s-272-276 |
| **Final imtahan** | | |